# Arzular... Realliğa doğru...

(Əvvəli 6-cı səhifədə).

Xalqın milli güc və qüdrətini, qələbə əzmini oyatdı. Hərbi fəaliyyəti və ölümü ilə BMT-nin və Minsk qrupunun qəbul etdiyi qətnamələrin yalnız kağız üzərində bir sənəd olduğunu, xalqa, dövlətimizə heç bir tarixi əhəmiyyət kəsb etməyən bir qərar olduğunu sübut etdi. Ölkə başçısının illərdi apardığı siyasətin sonunda döyüş yolu ilə torpaqlarımızı işğaldan təmizləmək üçün verdiyi sərəncam və qərarlar da bunu bir daha təsdiq etdi...

Bu gün Sumqayıt şəhərinin girəcəyindən başlayır "Sülh" küçəsi - ta Şəhidlər Xiyabanına qədər... Hərdən düşünürəm ki, (Əlbəttə mənim kimi düşünənlər də çoxdur) kaş ki, məhz bu küçəyə Polad Həşimovun adı veriləydi... Doğrudur, Sumqayıtda onun adı əbədiləşdirilmiş və adı verilmişdir. Ancaq sənəd üzərində olan BMT və Minsk qruplarının sülh qətnamələrinin yalnız sənəd üzərində olaraq heç bir əhəmiyyət kəsb etmədiyini məhz Polad Həşimov son dəfə öz ölümü ilə təsdiq etdi. Bax, buna görə də o küçəyə Azərbaycanın Milli Qəhrəmanı, general, Sumqayıt vətəndaşı Polad Həşimovun adının verilməsi ən böyük reallıq olardı. Əlbəttə, bu, ümumiləşdirilmiş bir istək, arzudur! Reallığı mümkün olsa, hər bir sumqayıtlının ürəyincə olar.

**Xatirələr necə qorunur?!**

Tez-tez Polad Həşimovun ailəsini ziyarətə gedirəm. Düz bir il iki aydır onların evinin bir gün, heç yarım gün belə boş olmasını görmədik. Bunu hər kəs təsdiqləyər. Ən böyük ziyarətgahdır bu kiçik otaqlar. Polada aid şəkil və xatirə əşyaları o qədərdir ki, birinə baxmaq üçün ələk-vələk edirsən əşyaları. Bəzən 3 qat, 4 və 5 qat üst-üstə yığılır bu "eksponatlar". Ziyarətə gələnlər onlara baxa bilmirlər ürəklə, bu xatirə əşyalarının əksəriyyəti hədiyyələrdir, Poladdan xatirə hədiyyələr. Bu isə ümumxalq sevgisinin bariz nümunəsidir.

Poladın bu otağı anaları anası Səmayə xanımın ən çox sevdiyi bir guşədir... Polad bu divanda oturardı... Poladın uşaqlıq, yeniyetməlik, gənclik qoxuları var bu otağın divarlarında. Hərdən yolu düşəndə tələsik evə gəlib əzizləri ilə görüşərdi, səngər qoxulu igid oğul... Bax, o qoxu ananın heç yadından çıxmır ki...

Ziyarətə gələnlər ananın, Poladın əzizlərinin dərdlərinə şərik olanlardır. Bəlkə də ümumxalq sevgisidir dərdli ananın dərdinə azacıq da olsa məlhəm olan... Vaxt, imkan verməyən... Hər ziyarətə gələnlərlə söhbətlər, xatirələr ona axşamın necə olduğunu hiss etdirmir. Ancaq hara gedirsən, nə danışırsan, dinləyirsən dinlə, o dərd səninlədir. Ancaq səninlə... Nəfəs alır sanki dərdlər də səninlə... Can ana, bilirəm bunları... Bu hissləri sənin baxışlarından, qanın ilə göz yaşının damarlarında birgə axmasından, titrəyən çiyinlərindən hiss edirəm. Başının üstündə ciyərparanın əllə çəkilmiş rəsminə söykənərək oturursan sanki divanda! O şəkil ki, əzəmət təcəssüm etdirir. Rəssam o şəkildə sanki Poladın bütün çətinliklərini onun üz cizgilərində əks etdirib... Nələr danışır şəkil onu anlayıb baxana!

Evdəki bu xatirələrin apaydın, səliqə ilə yerləşdirilməsini elə istərdim ki... Ananı ziyarətə gələnlər arasında iş adamları, dövlət qulluqçuları, sadə peşə adamları - şəhid valideynləri, qazilər, döyüşçülər... müxtəlif insanlar var. Və hər kəs də bu otağın necə sıxnaq olduğunun şahididir.

Ancaq onların evinə yaxın bir bina gördüm. ATS-in binası! Ürəyimdən keçirdim ki, kaş ki, Polad Həşimovun yaşadığı mənzilə yaxın olan bu binada onun ev muzeyini, məhz Azərbaycanın Milli Qəhrəmanı, general Polad Həşimova məxsus bir xatirə muzeyi təşkil oluna!.. Ziyarətçilər onu ziyarətə gələndə Polad xatirələrini tamlığı ilə görə, duya və yaddaşlarına həkk edə biləler. Əlbəttə, bu, mənim arzumdur. Kaş ki, reallaşa... Həm də bir növ təklifimdir, bədii formada poladsevərlərin ümumiləşdirilmiş arzusunun inikasıdır... Geniş otaq olarsa, generalımıza xas xatirə eksponatları da daha çox olar və sabahkı nəslə qəhrəmanlıq salnaməsinin qiymətinin ən bariz nümunəsi olar!.. Kaş ki...

Vəndam qəsəbəsinin mərkəzində Polad Həşimova həsr olunmuş guşə yaradılmışdır. Bu, qəsəbənin və ətraf kəndlərin, rayon mərkəzindən gələn insanların ziyarət məkanıdır. Demək olar ki, həmişə təzə-tər güllərlə ziyarət olunan bu məkan gənclərimizin, körpələrimizin and yeridir. Sovet dövründə Bakıda 26-lara aid xatirə barelyefinin qarşısında həmişə beylə gəlin şəkil çəkdirərdi. Tələbəlik illərində təsadüf etmişdim. Qəbələdə isə Böyük Vətən Müharibəsi iştirakçılarının şərəfinə ucaldılmış "Ana" abidəsi önünə ailə quran gənclər gül düzər və şəkil çəkdirərdilər. Axı bu xatirə kompleksləri and yeri sayılardı.

Bu gün qəhrəmanlığın, insanlığın ən bariz nümunəsi olan, həyatda əsgərlərinin, o dünyasında şəhidlərin generalı olan Polad Həşimov ən böyük and yerimiz deyilmi? Onun adına layiq qədim Qəbələ şəhərimizdə, Vəndam qəsəbəsində onun xatirə muzeyi təşkil olunarsa bu, ümumxalq sevgisi olmazmı?! Axı hamı istərdi ki, onun kimi bir qəhrəmanın adı hərtərəfli əbədiləşdirilsin.

Polad Həşimovun dünyaya göz açdığı bir ev var. O ev ki, bu ailənin ən xoş xatirələri cəmləşmişdir orada - ata yurdunda. Köhnədir, ancaq bütün poladsevərlər üçün qiymətlidir. Düşünürəm ki, Vəndam qəsəbəsinin 2 saylı orta məktəbinə yaxın bir həyəti olan bu ev Polad Həşimovun ev muzeyi kimi hazırlanarsa, yəqin ki, rayonumuza gələn qonaqların və eləcə də yerli sakinlərin ən gözəl ziyarət məkanına çevrilər. Ən ümdəsi həqiqi ev muzeyi olar Azərbaycan Milli Qəhrəmanı, general Poladımızın. Axı o orada yaşamışdır, tarixən də ata-baba evidir.

Bu da bir arzudur! Kaş ki... reallaşa!

Və bu muzeylərdə onun haqqında yazılan kitablar, qəzet və jurnal nümunələri toplana və vahid və həqiqi ev muzeyi ola, qapısı da ziyarətçilərinin üzünə həmişə açıq!..

Poladla bağlı o qədər reallaşası arzular var ki... Bu, zamanın işidir. Zamanla hər şey, hər istək öz yerini tutacaq. Axı Polad unudulmaz bir məfhuma çevrilib! Ürəklərdə məskən salıb. Azərbaycanın ikinci səngər qəhrəmanı, igidlik təcəssümü, insanlığın zirvəsində məkan salan və o zirvəyə ucalan bir insan, tarixlərcə öz yazdığı tarix ilə yaşayacaq!

**BİBİXANIM.**

---

Qəbələ rayonu turizm bölgəsi olduğu üçün təmizliyə, məişət tullantılarının vaxtında, lazımi yerlərə atılmasına xüsusi diqqət yetirilməlidir. Lakin son vaxtlar rayon ərazisində sanitariya-gigiyena qaydalarının pozulması, məişət tullantılarının tutumlardan kənara atılması hallarına tez-tez rast gəlinir. Ətraf mühitin qorunması üçün ortaq məqsədlə yaşamalıdır. Rayonumuzun vətəndaşları təmizliyə riayət etməklə, həm də buraya gələn qonaqlara da örnək olmalıdırlar.

Bu gün rayonumuzun bütün yaşayış məntəqələrində tullantıların atılması üçün xüsusi tutumlar qoyulub və ərazilə-

# Ağsaqqal sözü

## Şuranın iclasından qeydlər

hitin çirklənməsi həm rayonumuzun inkişafına, həm də insanların həyatına təhlükə yaradır. Bu halların qarşısının alınması və əhaliyə bununla bağlı xəbərdarlıqların edilməsi yönündə müvafiq tədbirlər görülür. Respublikada son vaxtlar tez-tez rast gəlinən məişət tullantılarının yol kənarlarına, meşə massivlərinə, çay yataqlarına atılması hallarının qarşısının alınması istiqamətində maarifləndirici söhbətlər aparılır, müvafiq aktlar tərtib edilir.

Bu tədbirlərdən biri də rayon ziyalılarının toplaşdığı Ağsaqqallar Şurasının təşəbbüsü ilə keçirilib. Bu iclasda Ağsaqqallar Şurasının sədri Mehman İsmayılov Qəbələ rayonunun sürətlə inkişaf etməsindən, həmçinin əhalinin vaksinasiya olunmasından söz açıb. Daha sonra sədr Qəbələ rayonunun küçələrinin, eyni zamanda, çay və yol kənarlarının əhali tərəfindən çirkləndirilməsini, tullantıların vaxtında lazımi yerlərə atılmamasını da qeyd edib və bu işdə insanların daha diqqətli olmasını, rayonumuzun təmiz saxlanılmasını xüsusi vurğulayıb.

Daha sonra çıxış edən Qəbələ rayon ağsaqqalları: Niyazi Babayev, Vaqif Əzizov, Muxtasər İsayev də Mehman İsmayılovun sözlərinə qoşularaq bildiriblər ki, rayonumuzun abadlığı, səliqəsi bizlərdən asılıdır və biz bu işlərdə fəal olmalı əhalini də bu yöndə maarifləndirməliyik.

Ekologiyamızın, ətraf mühitin qorunması sahəsində gənclərimiz də öz töhfəsini yorulmadan verməlidir. Günümüzün ətraf mühit problemlərinin həllinin zəruriliyini anlayan yeni gənc nəsil ətraf rin təmizliyi diqqət mərkəzində saxlanılır. Bəs belə olan halda biz nəyə görə bu təmizliyə, səliqə-sahmana xələl gətirməliyik. Bu işdə təkcə qanun yox, həm də vicdan, vətəndaş məsuliyyəti də öz sözünü deməlidir. Çünki təbiət-ətraf mühit hər birimizin doğma evidir.

Ağsaqqallar şurasının keçirdiyi iclasda müzakirə olunan məsələlərdən biri də vaksinasiya prosesi ilə bağlı olub. Belə ki, rayonumuzda vaksinasiya prosesi davam etsə də, bəzi vətəndaşlar hələ də bu prosesdə iştirak etməkdən boyun qaçırırlar. İclasın sədri Mehman İsmayılov yığıncaq iştirakçılarına vaksinasiya prosesi ilə bağlı geniş şəkildə təbliğat işləri aparmalarını tövsiyə edib.

Biz nəzərə almalıyıq ki, bütün dünyanı öz cənginə alan koronavirus bəlasından qurtulmağın yeganə yolu vaksinasiya prosesində iştirak etməkdir. Vətəndaşlar vaksinasiya prosesində nə qədər aktiv iştirak edərlərsə, ağırlaşmalar və ölüm faizi bir o qədər də azalar. Vaksinasiya yenidən sağlam və normal həyata dönüş deməkdir. Ən əsası isə vaksinasiya sağlam gələcəyin yeganə təminatıdır. Buna görə də hər kəs bu məsələdə son dərəcə məsuliyyətli və fəal olmalı, bütün çətin dönəmlərdə olduğu kimi, bu işdə də birlik və həmrəylik nümayiş etdirməlidir. Vaksinin müsbət təsirlərini yaxın vaxtlarda görəcəyik. Çünki bu faktor dünya təcrübəsində özünü təsdiq edib. Ətrafdakıları qorumaq naminə hər kəs peyvənd olunmalıdır.

**"Qəbələ**

---

## ALLAH RƏHMƏT ELƏSİN!

Qəbələ Rayon İcra Hakimiyyətinin kollektivi rayon icra hakimiyyətinin Başçısı **Səbuhi Abdullayevə** yaxın qohumu

**ZÖHRAB SALMANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Qəbələ" qəzetinin kollektivi rayon icra hakimiyyətinin Başçısı **Səbuhi Abdullayevə** yaxın qohumu

**ZÖHRAB SALMANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Qəbələ rayonu üzrə Maliyyə şöbəsinin rəisi Namiq Ağayev öz adından və kollektivin adından rayon icra hakimiyyətinin Başçısı **Səbuhi Abdullayevə** yaxın qohumu

**ZÖHRAB SALMANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Qəbələ rayon Mərkəzi Xəstəxanasının direktoru Sabir Bayramov kollektiv adından rayon icra hakimiyyətinin Başçısı **Səbuhi Abdullayevə** yaxın qohumu

**ZÖHRAB SALMANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Qəbələ Müalicə Diqnostika Mərkəzinin direktoru Ceyhun Əhmədov kollektiv adından rayon icra hakimiyyətinin Başçısı **Səbuhi Abdullayevə** yaxın qohumu

**ZÖHRAB SALMANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Qəbələ Ağsaqqallar şurasının sədri Mehman İsmayılov rayon ağsaqqalları adından rayon icra hakimiyyətinin Başçısı **Səbuhi Abdullayevə** yaxın qohumu

**ZÖHRAB SALMANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Qızıl Aypara Cəmiyyəti Qəbələ rayon bölməsinin sədri Sədaqət Bayramova rayon icra hakimiyyətinin Başçısı **Səbuhi Abdullayevə** yaxın qohumu

**ZÖHRAB SALMANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---




QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

qəzetinə

2021-ci ilin ikinci yarısı üçün abunə yazılışı davam edir.

Yarımillik abunə qiyməti 15 manatdır.

*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*

*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 318-90-24.


## İTMİŞDİR

Qəbələ Rayon İslahat Komissiyasının 29 noyabr 1997-ci il tarixli 26 nömrəli qərarı ilə Aydınqışlaq kənd sakini **Əliyev Asim Soltan oğluna** verilmiş JN seriyalı 369 nömrəli (kod 40608038) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır

---

Qəbələ bələdiyyəsi tərəfindən 01 noyabr 2004-cü il tarixli 08 nömrəli qərarla Qəbələ şəhər sakini **Yusifov Vahid Yusif oğluna** verilmiş **Torpaqların alqı-satqısına dair Akt** itdiyi üçün etibarsız sayılır.


«QƏBƏLƏ» qəzetinin reklam xidməti

205-19-14, 205-15-56



Redaktor
Azad Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: gabalanews@mail.ru
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № AZ36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində Kərimli Etibar Ələsgər oğlu Unibank CB mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
*Tiraj 1260*